# “Kontragentləri araşdır” elektron xidmətinin
# İstifadəçi təlimatı

**“Kontragentləri araşdır”** elektron xidmətindən istifadə etmək üçün Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA İmza

- SİMA Token.

Elektron kabinetə daxil olduqdan sonra açılan menyuda **“Digər xidmətlər”** modulu seçilir.




Daha sonra digər vergi ödəyicilərinin vergi orqanında olan məlumatlarına çıxış əldə edilməsi məqsədi ilə “Kontragentləri araşdır” elektron xidməti seçilir.




Xidmətə daxil olduqdan sonra açılan ekranda sorğunun formalaşdırılması üçün **“Yeni sorğu yarat”** düyməsi seçilir və qarşı tərəfin VÖEN-i müvafiq xanaya daxil edilir.







VÖEN daxil edildikdən sonra ekranda aşağıdakı məlumat bölmələri əks olunur:

- “Kommersiya və vergi sirri təşkil etməyən məlumatlar”

- “Kommersiya və vergi sirri təşkil edən məlumatlar”




Kommersiya və vergi sirri təşkil etməyən məlumatlar bölməsində qarşı tərəfə dair kommersiya və vergi sirri təşkil etməyən məlumatlar Dövlət Vergi Xidmətinin informasiya sistemləri tərəfindən avtomatik olaraq əks etdirilir.




Kommersiya və vergi sirri təşkil edən məlumatlar bölməsində istifadəçi baxış keçirilməsini istədiyi kommersiya və vergi sirri məlumatlarını seçir və seçiminə uyğun sorğu göndərir. Bu bölmədə təqdim olunan məlumatların istənilən biri və ya bir neçəsi seçilə bilər.



İstifadəçi tərəfindən “Son 3 ildən çox olmayaraq sorğu edilən dövr üzrə əldə edilmiş mallara dair məlumatlar” və “Son 3 ildən çox olmayaraq sorğu edilən dövr üzrə idxal edilmiş mallara dair məlumatlar” üzrə seçim edilərsə, bu zaman ekranda əks olunan “Sorğu edilən dövr” və “Malın kodu/adı” xanalarında müvafiq məlumatlar qeyd edilməlidir.






Daha sonra sorğunun göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, sorğudan imtina etmək üçün “İmtina” düyməsi sıxılır.



“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra sorğu imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər. “İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə geri qayıdılır.




Sorğu imzalanaraq göndərildikdən sonra məlumatın göndərilməsinə razılıq verilməsi məqsədi ilə vergi ödəyicisinə (**kontragentə**) göndərilir və kontragentin “Kontragentləri araşdır” elektron xidməti daxilindəki **“Daxil olanlar”**, sorğu edən vergi ödəyicisinin “Kontragentləri araşdır” elektron xidməti daxilindəki **“Göndərilənlər”** qovluğunda əks olunur.




*Qeyd: Əgər sorğu təqdim olunduqdan sonra 3 (üç) iş günü ərzində kontragent tərəfindən təsdiqlənməzsə, sorğu sistem tərəfindən ləğv edilir. Həmçinin sorğu edən vergi ödəyicisi tərəfindən eyni vergi ödəyicisinə əvvəl göndərilən sorğuya 3 (üç) iş günü müddətində münasibət bildirilmədən təkrar sorğu göndərilməsinə yol verilmir.*




Kontragent öz elektron kabinetində **"Daxil olanlar"** qovluğunda daxil olan sorğunu nəzərdən keçirib, məlumatların açıqlanmasına razılıq verə və ya məlumatların açıqlanmasından imtina edə bilər.




**Razılıq verilməsindən imtina edildikdə**

Kontragent razılıq verilməsindən imtina etdikdə, məlumatların açıqlanması həyata keçirilmir və sorğunun statusu sistemdə müvafiq olaraq "İmtina edildi" kimi yenilənir.




**Bütün məlumatların açıqlanmasına razılıq verildikdə**

Əgər kontragent təqdim olunan bütün məlumatların açıqlanmasına etiraz etmirsə, müvafiq təsdiq seçimlərini işarələyərək sorğunun imzalanması mərhələsinə keçid edir. Bu halda bütün tələb olunan məlumatların paylaşılmasına icazə verilmiş olur.




**Yalnız müəyyən məlumatların açıqlanmasına razılıq verildikdə**

Kontragent yalnız müəyyən məlumatların açıqlanmasına razılıq verdikdə həmin məlumatlar seçilir və yalnız bu seçimlər üzrə məlumatların paylaşılmasına icazə verilir. Digər məlumatlar üzrə açıqlama həyata keçirilmir.




Yekunda "Yuxarıda qeyd olunan məlumatların doğruluğunu təsdiq edirəm və vergi ödəyicisinə ötürülməsinə etiraz etmirəm" seçimi işarələnir və "İmzala və göndər" düyməsi sıxılır.







Kontragent sorğunu imzaladıqdan sonra sorğu sistemdə “Təsdiq olundu” statusu ilə əks olunur.

